


# AZƏRBAYCANIN DÖVLƏT SUVERENLİYİNİN GÜCLƏNDİRİLMƏSİNDƏ QARABAĞIN DİRÇƏLDİLMƏSİNİN STRATEJİ ASPEKTLƏRİ

**Məqalələrin son göndərilmə tarixi:**
20 noyabr 2025-ci il

**Müsabiqə Təşkilat Komitəsi ilə əlaqə:**
(+994 10) 313-75-06

www.tedgigatmerkezleri@unec.edu.az

www.garabagh.iam@unec.edu.az

Bakı şəhəri, İstiqlaliyyət küç., 6

UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi
UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi

# AZƏRBAYCANIN DÖVLƏT SUVERENLİYİNİN GÜCLƏNDİRİLMƏSİNDƏ QARABAĞIN DİRÇƏLDİLMƏSİNİN STRATEJİ ASPEKTLƏRİ

## Ümumrespublika Elmi Məqalə Müsabiqəsi – 2025

Müsabiqənin məqsədi ölkənin ali təhsil və elmi-tədqiqat müəssisələrinin professor-müəllim heyətinin, doktorant, dissertant, magistr və tələbələrinin Qarabağın dirçəldilməsi, xüsusilə işğaldan azad olunmuş ərazilərdə dövlət suverenliyimizin tam bərpa edilməsindən sonra iqtisadiyyat quruculuğunun daha səmərəli mexanizmlərinin müəyyənləşdirilməsi, Qarabağın dirçəldilməsinin dövlət suverenliyimizin gücləndirilməsində strateji əhəmiyyəti, Şuşa və Xankəndi şəhərlərinin iqtisadiyyat strukturunun formalaşdırılması problemləri və istiqamətləri üzrə tədqiqatların aparılmasının təşviq edilməsi və onların müsabiqə əsasında mükafatlandırılmasıdır.

**Müsabiqənin əsas istiqamətləri:**

- Azərbaycanın dövlət suverenliyinin gücləndirilməsində Qarabağın dirçəldilməsinin strateji əhəmiyyəti.
- Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsində Türk dövlətləri ilə əməkdaşlığın geoiqtisadi aspektləri.
- Şuşa şəhərində mədəniyyət iqtisadiyyatının və turizm sahəsinin prioritet inkişaf istiqamətləri.
- Azərbaycanın iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində Qarabağın nəqliyyat layihələrinin rolu.
- Xankəndi şəhərinin iqtisadiyyat quruculuğunun modelləşdirilməsi.

**Mükafatlandırma:**

Professor-müəllim heyəti və doktorant, dissertant, magistr və tələbələr üçün ayrıca nəzərdə tutulur:

**1. Mükafatın məbləği** (professor-müəllim heyəti üçün):

**I yer** – 600 AZN; **II yer** – 500 AZN; **III yer** – 400 AZN.

**2. Mükafatın məbləği** (doktorant, dissertant, magistr və tələbələr üçün):

**I yer** - 500 AZN; **II yer** – 400 AZN; **III yer** – 300 AZN

**3.** Hər iki heyət üzrə ilk 10-luğa düşən məqalələrə Sertifikatlar veriləcəkdir.
**4.** Komissiya tərəfindən seçilən məqalələr toplu şəkildə elektron-kitab formatında hazırlanacaqdır və UNEC-in rəsmi saytında yerləşdiriləcəkdir.

**Məqalələrə qoyulan tələblər:**
Məqalə 6-8 səhifə həcmində (şrift: Times New Roman, şriftin ölçüsü: 12, sətirlərarası məsafə: 1.5 interval, sol sahə: 3 sm, yuxarı sahə: 2 sm, aşağı sahə: 2 sm, sağ sahə 1.5 sm) olmalıdır. Məqalədə müəllifin adı və soyadı, elmi dərəcəsi, professor-müəllim heyətinin çalışdığı universitet (və ya elmi-tədqiqat müəssisəsi), kafedra; doktorant, dissertant, magistr və tələbənin təhsil aldığı təhsil müəssisəsi, fakültənin adı və qrupun nömrəsi mütləq qeyd olunmalıdır. Eyni zamanda elektron poçt ünvanları və telefon nömrələri də qeyd edilməlidir. Məqalələrin orijinallığı plagiat sistemi vasitəsilə yoxlanılacaqdır. Məqalələr azərbaycan, türk, ingilis və rus dillərində təqdim edilə bilər. Müsabiqədə iştirak etmək istəyən şəxslər məqalələrini **garabagh.iam@unec.edu.az** elektron ünvanına göndərməlidirlər.

**Məqalələrin qiymətləndirilmə meyarları:**
- Adın məzmuna uyğunluğu;
- Aktuallıq;
- Elmi məzmun;
- Praktiklik;
- Əsaslandırma dərinliyi

**Məqalələrin son göndərilmə tarixi: 20 noyabr 2025-ci il**
**Müsabiqənin nəticələri:** 2025-ci il dekabr ayının 10-da elan olunacaqdır.
**Mükafatlandırma tədbiri:** 2025-ci ilin 15-19 dekabr tarixində keçirilməsi nəzərdə tutulub (əlavə məlumat veriləcəkdir).

**Təşkilatçılar:**
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi və UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirlməsi və Təşkili şöbəsi
**Əlaqə telefonu:** (+994 12) 492-57-31 (UNEC Tədqiqat Mərkəzlərinin işinin əlaqələndirlməsi və təşkili şöbəsi).
**Koordinator** (ətraflı məlumat üçün): WhatsApp (+994 10) 313-75-06 (UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi)